**Cəlal Bərgüşad**

# *BOZATIN BELİNDƏ*

**(Roman)**

qanun nəşriyyatı

**Cəlal Bərgüşad. BOZATIN BELİNDƏ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 488 səh.

Janr: fiction/roman
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 11.04.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Korrektor: | Bəsti Məmmədova |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-930-2

© Qanun Nəşriyyatı, 2024
© Gənclik-Bakı,1970

Dünyada elə bir igid varmı öz ömür-gün yoldaşı ilə iyirmi beş il qaranlıq mağaralarda, qalın meşələrdə, qarlı dağlarda yaşasın: Dünyada elə bir cəngavər varmı at belində böyüyüb, at belində vuruşsun, at belində qocalıb, at belində həlak olsun?.. Belə bir xalq qəhrəmanına və onun özündən qoçaq can sirdaşına bəstələnən el nəğmələri anaların laylasına qarışıb körpələrin beşiyinə axıb. O körpələrdən biri də bu kitabın müəllifidir: indi canına hopmuş bu nəğmələri nasir qələmi ilə yenidən bəstələyir. Oxumağa dəyər.

# BİRİNCİ HİSSƏ

# PROLOQ

Ətrafını qaratikan kolları çəpərlənmiş balaca cığırla Yazıya tərəf bir neçə çiyni tüfəngli tərəkəmə atlısı gedirdi. Sübhün ala-qaranlığında adama elə gəlirdi ki, onlar başlarına papaq əvəzinə iri qoyun dərisi keçiriblər. Aşılı camış gönündən təzəcə tikilmiş qızqaytaran çarıqlarının burnu islanmış uzun, qara çuxalarının ətəkləri altından güclə görünürdü. Atlar tez-tez büdrəyirdi; axşamkı sel cığırları yuyub, daşların üstünü açmışdı. Atlılardan biri gözünü qıyıb üfüqə baxdı. “Bu səhər nə vaxt açılacaq? Görəsən bizim tərəkəmə camaatı tufanı necə qurtardı? Qoyun-quzunu sel aparmasa yaxşıdır, hələ göydən qara buludlar çəkilməyib”. Tufan sanki Gözəlin yun əlçimlərini cəhrənin böyründən aparıb tərəkəmə atlılarının başı üzərinə səpələmişdi. Elə bil Kərbəlayı Cəfər Gözəlin dağ boyda kələfini Qaroyn dərəsinə dağıtmışdı. Atlılar sanki kələfin bir ucundan tutub Yazıya tərəf qalxırdılar. Onların gur səsi aydın eşidilirdi. Arabir Həcərin adını çəkib, Nəbidən ağızdolusu danışırdılar.

– Zalım oğlu əsl igiddir!

– Deyirlər and içib ki, Səlim bəy göyün yeddi qatında da olsa tutacağam!

– Əgər deyibsə, hökmən tutacaq. O ili gördünüzmü bəyləri Yazıdan necə qovdu?!

– Deyirlər Səlim bəyin qoşunu çoxdur, özü də yaman adamdır. Neçə gündür vuruşur.

– Nə qədər qoşun gəlirsə-gəlsin Qaçaq Nəbiyə bata bilməz. O bu saat yaralı aslana dönüb. Kişinin halal nişanlısına Səlim bəy neçə gündür Molluda toy vurdurur. Buna kim dözər?! Atlılar Qaroun dərəsinə tərəf buruldular. Sınmış sarı simə bənzər qıvrım bir cığır onları dərəyuxarı hara isə çəkib aparırdı. Seldən bulanmış Bərgüşad dərdli analartək inləyir, söhbəti uzanan yolçuları elə bil duyuq salırdı: "Ey hara gedirsiniz? Sağ-solunuza yaxşı baxın, yolunuzu "qara ilanlar kəsmişdir!" "Sarı sim" dərənin boğazında qırıldı. Atlılar çaşıb qaldılar: "Hara gedək?" – "Bu sel yolları nə günə salıb?!" Yolçular "sarı simin" ucunu axtarırdılar. Qaratikan kollarının hər biri qanıq çoban köpəyinə dönüb qəzəblə onların üst-başlarını cırmaqlayırdı: "Eh, papağımda tük qalmadı" – "Görün tikan mənim üz-gözümü nə kökə salıb?" – "Bay, dizimə elə bil neştər batırdılar". Atalar deyinə-deyinə birtəhər qaratikanlıqdan çıxdılar. Cığır yenə görünmürdü. "Sarı sim" suda ilantək xına yaşmaqlı qayaların dibinə dolanmışdı. Yolçular sıldırımlığa çatanda Qaroun dərəsinin "şeşə qulaqları" daha bərk cingildəməyə başladı. Bu cingilti daşların arxasında pusquda duran bəylərin canına qorxu salırdı. Tərəkəmə atlılarının bundan xəbəri yox idi, yolu tanıdıqlarına görə sevinirdilər. Onlardan ən cavanı əlini qulağının dibinə aparıb, bu kimsəsiz dərədə elə bil səsini sınayırdı:

*Nəbinin bığları eşmə-eşmədir,*
*Papağı güllədən deşmə-deşmədir,*
*Nəbinin Bozatın heç at keçmədi,*
*Deyirlər, mahalda Qaçaqdır Nəbi,*
*Həcəri özündən qoçaqdır Nəbi.*

Tak!..Tuk!..Tak!...

Qəfildən atılan güllələr mahnını qırdı. Atlılar təəccüblə bir-birinin üzünə baxdılar. "Yəqin, Qaçaq Nəbidir, Səlim bəyin dəstəsi ilə atışır" – "Ogünkü kimi yenə davaya düşməsə yaxşıdır. Bərgüşad bəylərində insaf adlı şey yoxdur. Qaçaq Nəbidən qorxuları olmasaydı bizi bu il də qoymazdılar Yazıya düşək". – "Atlara dəyin, gedək obaya. Sürülərdən yaman nigaranam". Qorxuya düşən atlılar qaş-gözlə danışıb atəş açılan səmtə bir neçə güllə boşaltdılar. Cavab aldıqları üçün irəli getməyə cəsarət etmədilər. "Qaçmaq lazımdır!" Atlar arabir nazik cığırlarda büdrəyir, fınxıra-fınxıra Yazıya qalxırdı. Birdən kolların arasından bir neçə lülə göründü:

– Ey... Yekəpapaq Tərəkəmə kişiləri, kimə güllə atırdınız?! Rədd olub bu gün Yazıdan köçün! Yoxsa olan-qalan qoyunlarınızı da alarıq!

Yolçular ucuz ölümdən güclə qurtardılar.

Atışma isə şiddətlənirdi. Güllələrin vıyıltısı qayalara düşmüşdü, daşların həndəvəri soyumuş qurğuşun qırıqları ilə dolu idi. Yenicə çıxan günəş kolların dibində saralan gilizlərə od salmışdı. Bəylər, yasavullar, koxalar, Nəbinin gizləndiyi Qartal yuvasını tezdən oda tutmuşdular. Tərəkəmə atlıları qayıdıb qaçaqlara qoşulmuşdular. Onlar Mehdinin dəstəsi ilə birlikdə arxadan bəylərin başını qatırdılar... Dünən günortaüstü gözlənilmədən qopan tufan bəyləri qovub Qaroun dərəsindəki kahaya doldurmuşdu. Yasavullardan bir neçəsi hələ də Qartal yuvasının dövrəsində keşik çəkirdi. Bəylər isə kahada tüfənglərinə söykənib gümüş zəncirli demilərini fısqırda-fısqırda öz "şücaət"lərindən dəm vururdular.

– Bu qaçaq köpəkoğlunu da cəhənnəmə belə vasil elədik! – Topal Kərbəlayı Cəfər sinəsini erkək hinduşqa təki qabardıb medallarını cingildətdi. – Gorbagorun oğlu özü ilə gör necə

özü ilə sel-su gətirib?! Bu tufan onunkudur. Camaatın ayağı daha Ərzə qayadan yığışar...

– O mənə keçəl deyib? – Ala Mahmud bəy irəli yeriyib əlini bərk-bərk döşünə döydü: – O qulduru, bax, bu Lələşin gəbərdib!

Məmməd bəy çopurunu sıxlaşdırıb burnunu çəkdi. Ala Mahmud bəyə çəpəki nəzər salıb amiranə görkəm aldı:

– Adə, özünüzü az öyün, mənim kimi atan hələ anasından olmayıb. Qaçaq Nəbini, bax, mənim bu tüfəngim susdurdu! Yəqin, bu dəfə də müstəntiq Beçərova danos verəcəksiniz ki, Məmməd bəy heç atışmada olmayıb.

Söhbətdən alınan Kərbəlayı Cəfər narazı halda başını yırğaladı:

– Sizə daha heç sözüm yoxdur. O günü də, Araz qırağındakı atışmada general Skalona deyirdiniz ki, Cənab general, iranlı Canavarpapaq Qara Nəbini belə vurduq, Qara Nəbini belə yıxdıq. Söz çıxardınız ki, meyitini də Araz aparıb. Axırda Canavarpapaq Qara Nəbi xortladı. General Skalon "Von otsyuda!" deyib sizi nökər təki kabinetindən qovdu. Bütün İran mahalında da biabır oldunuz. Əhməd xan Təbrizdən Səlim bəyə xəbər göndərdi ki, gözdə-qulaqda olun, Canavarpapaq Qara Nəbi bu günlərdə Xudafərin körpüsündən yenə qaçaq mal addadacaq... Ha.. ha.. ha.. Ayıbdır, adam dil pəhlivanı olmaz. Yəqin, bu dəfə də naçalnik Səlim bəyin yanında özünüzdən basıb lovğa-lovğa deyəcəksiniz: Qaçaq Nəbini belə vurduq! Ay utanmazlar, ay nadürüstlər, axırıncı gülləni kim atdı? Mən atmadım?! Ondan sonra o quldurun nəfəsi kəsildi də...

Ala Mahmud bəylə Məmməd bəy qulaqardına vurub incik halda kahanın ağzından göyə baxırdılar. Səma bərk tutulmuşdu. Yağış ara vermirdi, dərələri sel başına götürmüşdü. Kərbəlayı Cəfər yenə rişxəndlə qəhqəhə çəkdi:

– Ha.. ha.. ha... Məmməd bəy niyə dinmirsiniz?! – Topalın qırmızı sifəti qan rəngini aldı. – Bəhanə ilə göyə baxmayın, mənə baxın. O Qaçaq Nəbini susduran, bax, bu – ağanızın nökəri Kərbəlayi Cəfər oldu.! – O, yumruğunu sinəsinə elə vurdu ki, az qaldı medalları qırılıb düşsün.

Ertəsi gün hava ayazımışdı. Bəylər qaçaqları da, tərəkəmə atlılarını da geri oturdandan sonra quzğun kimi yenə Nəbinin gizləndiyi qayanın başını kəsdirmişdilər. Gecə keşik çəkən yasavulların hamısı cücəyə dönmüşdü. Onlar ocaq qalayıb üstbaşlarını qurudurdular.

– Ə, Tuğay, Qartal yuvasından səs-səmir eşitməmişsiniz ki? – deyə Kərbəlayı Cəfər qoca yasavuldan soruşdu. – Yuvaya salladığımız sicimi tərpədib-eləyən olmayıb ki?

Tuğay belini şəstlə düzəldib kirpiksiz domba gözlərini işıldatdı:

– Kərbəlayı, dünən sizin güllənizdən sonra elə bil qurbağanın gölünə daş atıblar... Başına dönüm, mənim də qanımı yaman aldın ha!... Ürəyimdən elə bil tikan çıxartdın.

Kərbəlayı Cəfər qoca yasavulun bu sözündən sonra fır basmış boynunu tısbağa boynu təki uzatdı:

– Ağalar, qulaq verdiniz Tuğay nə dedi ?!

Məmməd bəylə Ala Mahmud bəy özlərini yenə karlığa vurdular. “Bu kişi nə yaman imiş! Padşahdan hiylə ilə medal almaq istəyir”.

– Ə eşitdiniz?! – deyə Kərbəlayı Cəfər Məmməd bəyin üstünə yeridi. – Deyəsən, xeyir salmır, ona görə dinmirsiniz, hə?...

– Eşitdik, ay Kərbəlayı Cəfər, eşitdik. Az özünü öy, – deyə Məmməd bəy alça yemiş uşaq təki üz-gözünü turşutdu. Onun çopurları lap sıxlaşdı. – Sən vurmusan, sən! Daha bizdən əl çəksənə! Paxıllıq eləmirik, bu dəfə yenə medalı sən alarsan. Neyləyək, bizim hələ padşahdan bir nişanımız da yoxdur.

Allaha şükür, sən ikisini İldırımı öldürəndən sonra alıb asmısan çuxanın yaxasından ki, hamı görsün, birini də indi alıb asarsan onun böyründən, olar üç.

Kərbəlayı Cəfər qırmızı sifətini ovuşdurub hiyləgər gözlərini qıydı:

– “Düşmən ocaq başındadır, mən də onu Qartal yuvasında axtarıram” – o hirsli-hirsli qızıl toqqasından asdığı xəncərini siyirib keşikçilərin böyründə dayanmış oğlunu çağırdı:

– Qoçaq, o sicimi bağla belinə, düş o heyvanın meyitini yuvadan çıxar.

Oğlan atasının onu belə ağır bir işə buyurmağından ürəklənib sicimin ucunu belinə bağladı. Kərbəlayı Cəfər xəncərini oğluna verdi. Keşikçilərə əmr etdi ki, ipi bərk tutsunlar. Onlar ayaqlarını qayaya dirəyib Əbil bəyi ehtiyatla Qartal yuvasına salmağa başladılar.

Əbil bəy gününü ovda keçirmişdi. Hənirti almağa alışmış qulaqları darı dərirdi. Yuvaya xeyli qalmış şaqqıltı eşitdi. O, xəncərinin dəstəyini sıxıb özünü yığışdırmışdı. Kərbəlayı Cəfər arabir oğlunu səsləyib qızışdırırdı:

– Ay qoçaq, tez ol, o gorbagor oğlunun başını bağla ipə çəkək!

Dostları Kərbəlayı Cəfərin bu cür canfəşanlığından pərt olmuşdular. Hətta bəzisi Qaçaq Nəbinin bu dəfə ölümünü istəmirdi. Nəbi isə yaxşı bilirdi ki, düşmənləri onu nəinki bu əlçatmaz Qartal yuvasında, lap yerin yeddi qatında da axtararlar. Neçə gün idi kirpik çalmırdı. Xəncəri ilə yuvanı çapıb böyütmüş, özü üçün balaca bir səngər düzəltmişdi. Çarpanaq daşlar barmaqlarının ucunu didib dağıtmışdı. O, min bir əziyyətlə mehriban qonşularına – balaca qartal balalarına da yanında sığınacaq hazırlamışdı.